

**Aqil BƏKİRLİ**
*BDU-nun filologiya fakültəsinin dördüncü kurs tələbəsi*

**SƏNSİZ**

Bir dəstə gül solur evimdə.
Solduqca güllərim, günlərim
Qəlbimə dərd dolur evimdə.
Boş bucaqlarda axtarıram özümü –
Hər bucaqda bir mən var,
Amma özüm yoxdu.
Məndə bir böyük "Sən" var,
Fəqət
sənsizliyə dözüm yoxdu.

Uzağam səndən,
Həm də elə yaxınam ki...
Ürəyimdəsən –
Hər döyüntüsündə qan olub
Axırsan damarımdan.
Həyat verir mənə,
Üstəlik, canımı da alırsan...
Yox, sanma ki, şikayətlənirəm,
Sanma ki, narazıyam.
Yox, əzizim, sadəcə,
Həsrətinlə qovruluram-
Sənə tamarzıyam!

Bilmirəm niyə, amma
Mən sən olsam da,
Yenə sənsizəm;
Sən ürəyimdə olsan da,
Sənsizlik qürbətində
Vətənsizəm...
Və sənsizəm!

**DÜŞÜNCƏLƏR**

Azad olmaq istəyirəm düşüncələrdən.
Və hərdən
düşünürəm:
Necə azad olum düşüncələrdən?
Düşünürəm, düşünürəm...
Düşüncələrdən necə azad olmağı
düşünərkən belə
qapılıram düşüncələrə!..

